# Aqrar siyasət

“Kənd təsərrüfatında aparılan islahatların nəticəsində böyük uğurlar qazanılıbdır. Torpaq özəl mülkiyyətə verilibdir. Bunun nəticəsində kənd təsərrüfatı istehsalında böyük uğurlar vardır.
... aqrar sektorda texniki servis mərkəzləri yaradılmalıdır. Fermerlər texnika ilə daha böyük həcmdə təmin olunmalıdır. Toxumçuluq bazası inkişaf etməlidir və əlbəttə, emal sənayesi yaranmalıdır. Bu istiqamətdə artıq çox uğurlu addımlar atılıbdır. Azərbaycanın müxtəlif bölgələrində yeni, müasir, dünya standartlarına cavab verən emal müəssisələri yaranmaqdadır. Bu həm işsizlik probleminin aradan qaldırılmasına kömək göstərir, həm də eyni zamanda yerli istehsalın inkişafı üçün gözəl zəmin yaradır. Bizim də məqsədimiz budur ki, Azərbaycanda yerli istehsal inkişaf etsin, idxal azalsın və Azərbaycan öz daxili bazarını ölkəmizdə istehsal olunan məhsullarla təmin etsin. Hesab edirəm ki, əgər kənd təsərrüfatında bu vaxta qədər görülən tədbirlərin davamı olarsa, biz buna da nail ola biləcəyik.”

***Nazirlər Kabinetinin iclasında nitqindən***
***(17 noyabr 2003-cü il)***

***

“...bu yaxınlarda "Aqrolizinq" Səhmdar Cəmiyyətinin yaradılması haqqında qərar verilibdir. O, kənd təsərrüfatı ilə məşğul olan zəhmətkeşlərə texnikanı icarəyə verəcəkdir. İndi bu, bizim ölkəmizdə aqrar sektorda həlli ən vacib olan məsələdir.”

***Lənkəran şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdə nitqindən***
***(8 noyabr 2004-cü il)***

***

“Aqrolizinq" şirkətinin yaradılması bu istiqamətdə atılmış gözəl addımdır. "Aqrolizinq" dövlət şirkətidir və büdcədən vəsait alır və kəndlilərə, fermerlərə yeni texnika verəcəkdir.”

***Şamaxıda kredit yarmarkasında nitqindən***
***(26 aprel 2005-ci il)***

***

“Kənd təsərrüfatında böyük potensial var. Həm iqtisadi potensial var, həm də təbiidir ki, bunun sosial mənası var. Çünki görülən işlərin son məqsədi Azərbaycan xalqının, Azərbaycan insanlarının daha da yaxşı yaşamasıdır, həyat səviyyəsinin qaldırılmasıdır.
Sahibkarlar artıq Azərbaycanda bir sinif kimi formalaşır, bir amil kimi Azərbaycanın həyatında mövcuddurlar. Arzu edirəm ki, onların cəmiyyətdə olan təsiri və çəkisi bundan sonra da artsın”.

***Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqramının icrasına dair illik konfransda nitqindən***
***(12 may 2005-ci il)***

***

“Kənd təsərrüfatında böyük potensial var. Bu istiqamət də diqqət mərkəzindədir. "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 250 kombayn, 200-dən çox traktor, digər texnika alınıbdır.”

***Heydər Əliyev parkında Quba rayonunun sakinləri ilə görüşdə nitqindən***
***(25 iyul 2005-ci il)***

***

“...biz kənd təsərrüfatına çox kömək edirik. Əhalinin yarısı kənd yerlərində yaşayır. Buğda yetişdirilən torpaqların hər hektarına görə kəndlilərə 50 dollar verilir. Bundan əlavə, biz kəndlilərə gübrə sarıdan ciddi kömək etməyi planlaşdırırıq və artıq bu işə başlamışıq. Biz dövlət xətti ilə texnika alırıq və istehsalın artırılması üçün bu texnikanı güzəştli qiymətlə kəndlilərə icarəyə veririk. Bir daha demək istəyirəm ki, iqtisadiyyat maksimum dərəcədə liberallaşdırılmışdır. Bizdə özəl sektorun ÜDM-də payı 80 faizdən çoxdur.”

***Moldovanın “Kanal-4” televiziyasına müsahibəsindən***
***(19 dekabr 2007-ci il)***

***

"Azərbaycan iqtisadi təhlükəsizliyini, enerji təhlükəsizliyini təmin edibdir və başqa ölkələrin enerji təhlükəsizliyində iştirak edir. Ərzaq təhlükəsizliyi də ondan az əhəmiyyət daşımayan sahədir. Xüsusilə biz görəndə ki, dünyada ərzaq məhsullarının qiymətləri qalxır və bu, istər-istəməz bizim istehlak bazarımıza mənfi təsir göstərir. Bildiyiniz kimi, qəbul edilmiş bütün qərarlar, tədbirlər ona xidmət edir ki, Azərbaycanda kənd təsərrüfatı daha da inkişaf etsin."

***Nazirlər Kabinetinin 2007-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2008-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında yekun nitqindən (11 yanvar 2008-ci il)***

***

"Meliorasiya tədbirləri nəticəsində, əlbəttə ki, əkin sahələri də genişlənəcəkdir. Bu, birbaşa ərzaq təhlükəsizliyi məsələləri ilə bağlıdır. Bu barədə artıq mən bir neçə dəfə demişəm, biz çalışmalıyıq ki, maksimum dərəcədə çox yaxşı olar ki, mütləq dərəcədə, özümüzü əsas ərzaq məhsulları ilə təmin edək.
İndiyə qədər bu, belə deyil və bunun da tarixi səbəbləri var. Sovet İttifaqı zamanı hər bir müttəfiq respublika hansısa bir sahə üzrə ixtisaslaşdırılırdı.
Amma bu gün biz ərzaq təhlükəsizliyimizi özümüz təmin etməliyik."

***Ölkəmizdə su təchizatı, meliorasiya, irriqasiya və kanalizasiya sistemlərinin inkişafı ilə bağlı layihələrə dair iclasda giriş nitqindən (29 aprel 2008-ci il)***

***

"Sovet İttifaqı zamanında Azərbaycan heç vaxt özünü ət məhsulları, süd məhsulları ilə təmin edə bilmirdi. Bitki yağları ilə, şəkərlə təmin edə bilmirdi. Bu gün biz buna, demək olar ki, nail ola bilmişik. Ət, süd məhsullarının təxminən 90 faizi, şəkər, bitki yağlarının 100 faizi Azərbaycanda istehsal olunur. Düzdür, şəkərin və bitki yağlarının istehsalı üçün xammal xaricdən gətirilir. Bu da təbiidir, bütün ölkələrdə belədir. Ancaq son məhsul Azərbaycanda istehsal olunur."

***Nazirlər Kabinetinin 2008-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş geniş iclasında yekun nitqindən (5 avqust 2008-ci il).***

***

"Azərbaycanın tarixində ilk dəfə olaraq, biz özümüzü taxılla təmin edəcəyik. Bu il 3 milyon ton taxıl istehsal ediləcək, bu, böyük göstəricidir. Təkcə bir il ərzində Azərbaycanda 500 min ton əlavə taxıl istehsal olunacaqdır. 2,2 milyon ton buğda istehsalı bizim, demək olar ki, ərzaq təhlükəsizliyimizin əsas hissəsinin təmin edilməsinə xidmət göstərir. Nəyin hesabına biz buna nail ola bilmişik? Mütəmadi qaydada görülən işlər, konkret proqramlar, regional inkişaf proqramının, infrastruktur layihələrinin icrası, "Aqrolizinq"in yaradılması hesabına. Bu gün deyildi ki, "Aqrolizinq" xətti ilə nə qədər texnika, kombayn, traktorlar alınıb, digər lazımi məsələlər həll olunubdur. Əgər biz "Aqrolizinq"i yaratmasaydıq, fermerlər hansı pulun hesabına o texnikanı ala bilərdilər? Bu gün Azərbaycanda istehsal olunan traktorlar iş yerlərinin açılmasına, yeni sənaye sahəsinin yaranmasına xidmət göstərir. Beləliklə, Azərbaycan sənayesi üçün yeni sahə yaradılır."

***Nazirlər Kabinetinin 2009-cu ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş geniş iclasında yekun nitqindən (22 iyul 2009-cu il)***

***

"Sovet dövründə Azərbaycan heç vaxt özünü ərzaq məhsulları ilə təmin etmirdi. Biz ərzaq təhlükəsizliyi məsələlərini, demək olar ki, bu il həll etmişik. Növbəti illərdə, sadəcə, əldə edilmiş uğurlar əsasında daha da geniş işlər aparılmalıdır. Bu məqsədlə əlavə tədbirlər görüləcəkdir. Bölgələrdə böyük anbarların, soyuducu kombinatların tikintisi nəzərdə tutulur. Bu, həm sahibkarların öz vəsaiti hesabına olmalıdır, eyni zamanda, Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ayrılmış kreditlər hesabına bunu etməliyik."

***Nazirlər Kabinetinin 2009-cu ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş geniş iclasında yekun nitqindən (22 iyul 2009-cu il)***

***

"..növbəti bir neçə il ərzində biz Azərbaycanda istehsal olunan kənd təsərrüfatı məhsullarının böyük hissəsini özümüzdə emal edəcəyik və hazır məhsul kimi ixrac edəcəyik. Biz ixrac yollarımızı daha da genişləndirməliyik. Əlbəttə ki, ənənəvi bazarlar vardır və biz o bazarlarda daha da geniş təmsil olunmalıyıq. Ancaq biz yeni bazarları da axtarmalıyıq. Nəzərə alsaq ki, heç axtarmağa da dəyməz, bu bazarlar bizim ətrafımızdadır. Elə məhsullar buraxılmalıdır ki, Azərbaycanın kənd təsərrüfatı məhsulları Avropa İttifaqı bazarlarına rahatlıqla çıxa bilsinlər. Bunun üçün əlbəttə ki, müəssisələr müəyyən standartlara uyğun olmalıdır. Azərbaycanda son illər ərzində yaradılan emal müəssisələri bu standartlara cavab verir."

***Nazirlər Kabinetinin 2009-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında yekun nitqindən (18 yanvar 2010-cu il).***

***

"Suvarma məsələləri də həm dövlət büdcəsi, həm kreditlər hesabına öz həllini tapır. Biz yeni əkin sahələrini işə salmalıyıq. Kənd təsərrüfatı, əslində intensiv şəkildə inkişaf etməlidir. Ancaq hələ ki, dövriyyədən kənarda olan torpaqlar da suvarılarsa, bu torpaqlar artıq münbit vəziyyətə gətiriləcək və kənd təsərrüfatının inkişafı fermerlərin daha da səmərəli fəaliyyəti üçün həm əlavə gəlir mənbəyi yaradacaq, həm də ki, biz öz ərzaq təhlükəsizliyi məsələlərimizi daha da sürətlə icra edəcəyik. Bir daha demək istəyirəm ki, bütün bu məsələlər dövlət büdcəsində və nəzərdə tutulmuş proqramlarda öz əksini tapır."

***"Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransda yekun nitqindən (12 mart 2010-cu il)***

***

"...biz demək olar ki, əsas ərzaq məhsulları ilə özümüzü böyük dərəcədə təmin edirik. Mən bəzi rəqəmləri indi səsləndirmək istəyirəm ki, bunu hamı bilsin. Özümüzü dənli bitkilər üzrə 76 faiz təmin edirik. Quş əti 74 faiz, ət 94 faiz, kərə yağı 83 faiz, süd məhsulları və süd 85 faiz, un 94 faiz, şəkər 150 faiz, yəni ki, 50 faizi ixraca gedir, tərəvəz 102 faiz, meyvə 127 faiz - budur əsas qida məhsullarının statistikası. Azərbaycanda heç vaxt özünü bu dərəcədə təmin etmək imkanları olmamışdır."

***"Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransda yekun nitqindən (12 mart 2010-cu il)***

***

"Hesab edirəm ki, zeytunçuluq inkişaf etməlidir. Bunun gözəl ənənələri vardır və təbii iqlim də buna müsaidə edir. Zeytunçuluq təsərrüfatlarının, müasir emal müəssisələrinin yaradılması prosesi sürətlə getməlidir. İndi Azərbaycanda zeytun istehsalı sürətlənir. Bakı qəsəbələrində bunu etmək üçün çox yaxşı imkanlar vardır."

***Bakı şəhərinin və paytaxtətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına dair müşavirədə yekun nitqindən (9 mart 2011-ci il).***

***

"Biz növbəti illərdə kənd təsərrüfatının emal sahəsinin inkişafı ilə bağlı əlavə addımlar atacağıq. Kənd təsərrüfatının inkişafı üçün çox gözəl imkanlar vardır. Birinci növbədə dövlət siyasəti düzgün istiqamətdə aparılır, sahibkarlığın inkişafına dəstək verilir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə hər il böyük məbləğdə vəsait nəzərdə tutulur. Bu il sahibkarlara 125 milyon manat vəsait veriləcəkdir. Bu kompleksin yaradılmasında müəyyən dərəcədə dövlət imkanlarından istifadə olundu. Ancaq qeyd etməliyəm ki, investisiyaların mütləq əksəriyyəti sahibkarlar tərəfindən qoyulmuşdur. Bu da çox müsbət haldır. Bu, onu göstərir ki, sahibkarların Azərbaycanın iqtisadi inkişafına böyük inamı vardır."

***Qarabağ iqtisadi zonasında kənd təsərrüfatı sahəsində sahibkarlığın inkişafı məsələlərinə həsr olunmuş müşavirədə giriş nitqindən (6 may 2011-ci il)***

***

"Texnikanın gətirilməsi, güzəştli şərtlərlə kreditlərin verilməsi, subsidiyalar – bütün bunlar kənd təsərrüfatının inkişafına xidmət göstərir. Təsadüfi deyildir ki, bu ilin 9 ayında kənd təsərrüfatı 7,6 faiz artmışdır. Bu sahə, eyni zamanda, böyük sosial məna daşıyır, çünki əhalinin təxminən yarısı aqrar bölgələrdə yaşayır. Beləliklə kənd təsərrüfatının inkişafı nəticəsində məhsuldarlıq artır, əkin sahələri çoxalır. Meliorativ tədbirlərin görülməsi nəticəsində biz növbəti illərdə daha da böyük həcmdə yeni torpaqların dövriyyəyə buraxılmasına nail olacağıq. Bundan sonra kənd təsərrüfatı ilə bağlı tədbirlər ardıcıllıqla aparılacaqdır. Bununla bərabər, biz gərək yeni bazarlara çıxış üçün indidən çox ciddi fikirləşək və işləyək. Bu işlər aparılır. Xüsusilə nəzərə alsaq ki, bizim üçün ənənəvi olmayan bazarlarda kənd təsərrüfatı məhsullarımızı, emal sənayemizin məhsullarını gözləyirlər, biz sadəcə olaraq siyasətimizi düzgün şəkildə aparmalıyıq, daxili istehsalla daxili istehlakı və xarici bazarlara çıxışımızı uzlaşdırmalıyıq ki, Azərbaycanda gələcəkdə daha da böyük həcmdə istehsal olunacaq kənd təsərrüfatı məhsulları öz müştərilərini tapa bilsin."

***Nazirlər Kabinetinin 2011-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında giriş nitqindən (24 oktyabr 2011-ci il)***

***

"Bir neçə il bundan əvvəl mən qarşıya vəzifə qoymuşdum ki, biz əsas ərzaq məhsulları ilə özümüzü təmin edək. Bu istiqamətdə böyük işlər görülmüşdür. Bizim indi satış məntəqələrimizdə satılan məhsulların, yəni, ərzaq məhsullarının böyük əksəriyyəti, mütləq əksəriyyəti Azərbaycanda istehsal olunan məhsullardır. Əgər biz keçmişi yada salsaq görərik ki, o vaxt yerli məhsulları heç tapmaq mümkün deyildi. İndi bizim yerli məhsullarımız heç xarici məhsuldan geri qalmır - həm keyfiyyəti, həm onların müasir qablaşdırılması, xarici görünüşü, dadı baxımından. Bizim məhsullarımız, xüsusilə tərəvəz, meyvə məhsullarımız təbiidir. Dünyada buna orqanik deyirlər. Bakıya, Azərbaycana gələn bütün qonaqlar məəttəl qalırlar ki, bizdə necə gözəl, təbii meyvələr, tərəvəzlər vardır."

***Nazirlər Kabinetinin 2011-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2012-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasındayekun nitqindən (16 yanvar 2012-ci il).***

***

“Keçən ilin sonunda üzümçülüyün inkişafı ilə bağlı Dövlət Proqramı qəbul edilmişdir. Bu da bizim niyyətimizi göstərir. Üzümçülüyün Azərbaycanda böyük ənənələri vardır. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1970-1980-ci illərin əvvəllərində böyük üzüm bağları salınmışdır. Azərbaycanda iki milyon ton üzüm istehsal edilmişdir. Sovet məkanında ən böyük istehsalçı Azərbaycan idi. Ondan sonra, antialkoqol kampaniyası nəticəsində nədənsə, ancaq Azərbaycanın üzüm bağları kəsildi, dağıdıldı.”

***Nazirlər Kabinetinin 2011-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2012-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında yekun nitqindən (16 yanvar 2012-ci il).***

***

“Biz dünyanın ən mütərəqqi texnologiyalarını Azərbaycana gətiririk. Bütün sahələrə, eyni zamanda, kənd təsərrüfatı sahəsinə də bu texnologiyalar gəlir. Əlbəttə ki, beynəlxalq qurumlarla, ilk növbədə FAO ilə əməkdaşlığımızın nə qədər vacib olduğunu bir daha qeyd etmək istəyirəm. Çünki biz ölkəmizi müasirləşdiririk. Azərbaycanda çox böyük modernləşmə siyasəti aparılır. Kənd təsərrüfatı bizim üçün ən vacib olan sahələrdən biridir.
... Ərzaq təhlükəsizliyi məsələləri bu gün dünya gündəliyində çox mühüm yer tutur. Azərbaycan artıq donor ölkəyə çevrilir. Biz müstəqilliyimizin ilk illərində beynəlxalq təşkilatlardan böyük yardımlar almışıq və buna görə minnətdarıq. Bu yardımlar bizə imkan verib ki, ölkəmizi inkişaf etdirək.”

***BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Avropa üzrə 28-ci regional konfransında çıxışından (19 aprel 2012-ci il).***

***

“Ərzaq təhlükəsizliyi ilə bağlı məsələlər də Azərbaycanda uğurla həll edilir. Bu məsələyə də biz kompleks şəkildə yanaşırıq, lazımi təhlil aparılır. Bizim daxili imkanlar, daxili bazarın potensialı araşdırılır və qarşıya məqsəd qoyulmuşdur ki, biz özümüzü yerli məhsullarla maksimum dərəcədə təmin edək.
Bu məsələ ilə bağlı da biz daim fikir mübadiləsi aparırıq. Müvafiq göstərişlər verilmişdir və hesab edirəm ki, gələn il bu istiqamətdə əlavə tədbirlər görüləcəkdir. Əsas ərzaq məhsullarının istehlakı yüz faiz Azərbaycanda istehsal olunan mallar hesabına təmin edilməlidir. Biz buna yaxınıq, bəzi mövqelər üzrə bunu əldə etmişik, bəzi istiqamətlər üzrə artıq hədəfə yaxınlaşırıq. Bölgələrdə yaradılan yeni müəssisələr, emal müəssisələri, südçülük fabrikləri, heyvandarlıq fermaları, çörək zavodları, quşçuluq fabrikləri bizə imkan verir ki, yaxın illərdə hər bir mövqe üzrə daxili tələbatı yüz faiz öz gücümüzə arxalanaraq təmin edək. Bu, həm sosial məsələdir, həm ərzaq təhlükəsizliyi məsələsidir, həm də iqtisadi məsələdir, iş yerlərinin yaradılmasına gətirib çıxarır. Yəni, biz burada bir neçə hədəfi nəzərə alırıq və bütövlükdə bu istiqamətdə aparılan işlər məni qane edir. Çünki biz bu işlərə sistemli yanaşmışıq, pərakəndə şəkildə yox. Sistemli təhlil aparılmışdır və biz bu istiqaməti Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə də sahibkarlara göstəririk.”

***Nazirlər Kabinetinin 2012-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında yekun nitqindən (10 oktyabr 2012-ci il)***

***

“...biz statistik göstəriciləri təhlil edərkən görürdük ki, özümüzü quş əti ilə heç də yarıya qədər təmin edə bilmirik. Bu məqsədlə sahibkarlığın inkişafı üçün kreditlərin verilməsi məhz bu istiqamətə yönəlmişdir. Hazırda icra olunan və gələcəkdə icra ediləcək layihələr bu imkanı bizə yaradacaqdır. Yəni, biz özümüzü yüz faiz quş əti ilə təmin edəcəyik.
Biz heç vaxt özümüzü süd və süd məmulatları ilə təmin edə bilməmişdik. Bu gün də özümüzü təqribən 70 faiz səviyyəsində təmin edirik. Ancaq əminəm ki, 1-2 ilə biz özümüzü bu məhsul üzrə də yüz faiz təmin edəcəyik.
Bildiyiniz kimi, bir neçə ildir ki, Azərbaycana cins mal-qara gətirilir. Bu da dövlət təşəbbüsü idi. Buna böyük ehtiyac var idi. Artıq bir neçə ildir ki, cins mal-qara gətirilir və beləliklə, bu, südçülüyün və heyvandarlığın inkişafı üçün böyük bir dəstək olacaqdır.”

***Beyləqanda Aran və Yuxarı Qarabağ bölgələrində fəaliyyət göstərən sahibkarlarla görüşdə yekun nitqindən (28 oktyabr 2012-ci il)***

***

“...bir neçə il bundan əvvəl kənd təsərrüfatının inkişafı ilə bağlı məsələləri təhlil edərkən gördük ki, məhsulların saxlanılması üçün bizdə kifayət qədər şərait yoxdur. Yəni, nəinki müasir şərait, ümumiyyətlə şərait yoxdur. Beləliklə, soyuducu anbarların tikintisinə qərar verildi və biz bu problemi qısa müddət ərzində həll etdik. Bu, həm sahibkarlığın inkişafına verilən böyük dəstəkdir, eyni zamanda, qiymətlərin tənzimlənməsi üçün vacib olan vasitədir. Yəni, deyə bilərəm ki, biz əsas problemləri 2 ilə aradan qaldırdıq. Amma kənd təsərrüfatı məhsulları istehsalının artımını nəzərə alaraq, əlbəttə ki, soyuducu anbarların tikintisi davam etdirilməlidir. Həmçinin taxıl anbarlarının tikintisi davam etdirilir və taxıl istehsalının, ərzaq buğdasının istehsalının artırılmasını nəzərə alaraq, yaxın illərdə biz bu istiqamətə əlavə vəsaitin ayrılmasına da əlbəttə ki, baxacağıq.”

***Beyləqanda Aran və Yuxarı Qarabağ bölgələrində fəaliyyət göstərən sahibkarlarla görüşdə yekun nitqindən (28 oktyabr 2012-ci il)***

***

“Kənd təsərrüfatı iqtisadiyyatın çox böyük potensiala malik olan nəhəng sektorudur. Kənd təsərrüfatının inkişafı həm də gələcəkdə məşğulluğun təmin edilməsi deməkdir. Bu sahədə ixrac potensialı kifayət qədər böyükdür. Əsas qida məhsulları üzrə biz bir ildən, maksimum iki ildən sonra özümüzü tam təmin edəcəyik. Bundan sonra isə artıq xarici bazarlara çıxış prosesi başlanacaqdır.”

***“Rossiya-24” telekanalına müsahibəsindən (22 dekabr 2012-ci il)***

***

“İri fermer təsərrüfatlarının yaradılması prosesi başlamışdır. ...Artıq beş min hektara qədər torpaq sahələri ayrılıb, Ağcabədi və Beyləqan rayonlarında iri fermer-taxılçılıq təsərrüfatlarının yaradılması artıq təmin edilibdir. Biz əlbəttə, o sahələrdən bol məhsul gözləyirik. Hesab edirəm ki, orada məhsuldarlıq da yüksək olmalıdır. Bu layihələrin icrası nəticəsində biz taxılla özümüzü təmin etmək üçün çox ciddi addım atmış oluruq.”

***“Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda yekun nitqindən (12 fevral 2013-cü il)***

***

“Aqrar sahədə də İKT məsələlərinin həlli hesab edirəm ki, vacibdir. Onların arasında fermerlərin elektron qeydiyyat sisteminin yaradılması məsələsi dayanır. Bu layihə bir neçə məqsədi güdəcəkdir. Həm subsidiyaların səmərəsini artıracaq və həm də pay torpaqlarının sərhədləri bir daha dəqiqləşdiriləcəkdir. Buna da böyük ehtiyac var və ümumiyyətlə, biz müasir texnologiyaları kəndlərə də gətirməliyik.”

***“Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda yekun nitqindən (12 fevral 2013-cü il)***

***

“Heyvandarlıq, südçülük, bağçılıq, üzümçülük - bu sahələrin inkişafı üçün çox böyük imkanlar vardır, eyni zamanda, biz məhsuldarlığın artırılmasına da nail olacağıq. Son illər ərzində yaradılan, yaxud da ki, yaradılmaqda olan yeni müəssisələr məhz ona hesablanıbdır.”

***“Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda yekun nitqindən (12 fevral 2013-cü il)***

***

“Aqrar sahə ilə bağlı, hesab edirəm ki, biz aqraryönümlü orta peşə təhsili müəssisələrinin yaradılmasına da başlamalıyıq.”

***Nazirlər Kabinetinin 2013-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında yekun nitqindən (14 aprel 2013-cü il)***

***

“Elektron kənd təsərrüfatı sistemi, yeni texnikanın, damazlıq mal-qaranın alınması - bütün bunlar bir məqsədi güdür ki, biz fermerlərin həyatını yüngülləşdirək, onlar üçün əlavə gəlir mənbəyi təmin edək.”

***Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında yekun nitqindən (10 iyul 2014-cü il)***

***

“Azərbaycanda müasir emal müəssisələri yaradılır. Kənd təsərrüfatı məhsullarımız dünya bazarlarına emal edilmiş şəkildə çıxarılır.”

***Nazirlər Kabinetinin 2014-cü ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında yekun nitqindən (8 oktyabr 2014-cü il)***

***

“Astarada çayçılığın çox qədim və gözəl ənənələri var. Sovet dövründə böyük çay plantasiyaları salınmışdır. Əfsuslar olsun ki, sonrakı dövrdə bu sahə bir qədər tənəzzülə uğramışdır. Biz məcbur olub çayı xaricdən idxal etməyə başlamışdıq. Amma indi belə gözəl müəssisələr yarandıqda əminəm ki, Azərbaycan yaxın gələcəkdə özünü keyfiyyətli yerli çayla təmin edəcək.”

***“Astaraçay” MMC-nin çay emalı fabrikində yaradılan şəraitlə tanış olduqdan sonra çıxışından (11 aprel 2015-ci il)***

*******

“Bu il “Kənd təsərrüfatı ili” elan edilmişdir. Əsas hədəfimiz budur ki, biz özümüzü əsas ərzaq məhsulları ilə 100 faiz təmin etməliyik. Həmçinin güclü rəqabətqabiliyyətli ixrac potensialı da yaratmalıyıq. Çünki gələcəkdə kənd təsərrüfatımız ancaq ixrac hesabına sürətlə inkişaf edə bilər. Yaxın bir neçə il ərzində biz daxili tələbatı tam yerli istehsal hesabına təmin edəcəyik.”

***28 May – Respublika Günü münasibətilə rəsmi qəbulda nitqindən***
***(27 may 2015-ci il)***

***

“Kənd təsərrüfatının inkişafı, artımı həm sosial, həm də iqtisadi sahədir. Biz çalışırıq və çalışacağıq ki, özümüzü əsas ərzaq məhsulları ilə 100 faiz səviyyəsində təmin edək. Biz bu hədəfə yaxınlaşırıq.”

***Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqindən***
***(12 oktyabr 2015-ci il)***

*******

“Azərbaycanda kənd təsərrüfatının inkişafına xüsusi diqqət göstərilir, deyə bilərəm ki, nadir bir şərait yaradılıb, vergilərdən azadolunma praktikası məncə, ancaq Azərbaycanda tətbiq edilir. “

***Qax rayonunda barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsindəki yekun nitqindən***
***(3 avqust 2017-ci il)***

***

“2021-ci ilə qədər tütün istehsalı üçün əkin sahələri iki dəfə genişləndirilməlidir. İndiki 3200 hektardan təqribən 6 min hektara çatdırılmalıdır.”

***Qax rayonunda barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsindəki yekun nitqindən***
***(3 avqust 2017-ci il)***

***

“Kənd təsərrüfatının sürətli inkişafına böyük dövlət dəstəyi göstərilir, texnika alınır, suvarma işləri aparılır, güzəştli şərtlərlə gübrələr, yanacaq, subsidiyalar verilir, o cümlədən pambıqçılığın inkişafı, sənaye müəssisələrinin yaradılması üçün dövlət öz dəstəyini göstərir. Özəl sektor da bu işlərdə çox fəaldır. Ona görə ölkəmizin hərtərəfli inkişafı üçün bu əsas istiqamət mütləq inkişaf edəcək.”

***Mingəçevir şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdə nitqindən***
***(27 fevral 2018-ci il)***

***

“Biz torpaq fondumuza çox ciddi yanaşmalıyıq. Biz indi böyük aqroparklar yaradırıq, 40-dan çox aqropark yaradılır. Onların böyük hissəsi heyvandarlıq üzrədir, eyni zamanda, bitkiçilik sahəsini əhatə edir. Bu aqroparklara yüz min hektardan çox torpaq ayrılmışdır. Ona görə, biz torpaq fondumuza çox böyük səmərə ilə ehtiyatla və diqqətlə yanaşmalıyıq. Biz nəinki pambıqçılığı, kənd təsərrüfatının bütün digər sahələrini də ancaq intensiv üsullarla inkişaf etdirməliyik.”

***Pambıqçılığın inkişafına dair respublika müşavirəsində yekun nitqindən***
***(27 mart 2018-ci il)***

***

“Son iki il ərzində kənd təsərrüfatı texnikasına 300 milyon manatdan çox vəsait ayrılmışdır. Onun da böyük hissəsi pambıqçılıq texnikasıdır. Fermerlər yaxşı bilirlər ki, biz ən qabaqcıl texnikanı alırıq. Biz pambıqçılıqda dünyanın bir nömrəli texnikasını alırıq. Əvvəlki dövrdə təkcə 370 pambıqyığan kombayn alınmışdır və bu il əlavə 100 pambıqyığan

kombayn alınacaq. Lazım olarsa, biz gələcəkdə də texnikanın alınması ilə məşğul olacağıq. Ancaq məlumat üçün bildirmək istəyirəm ki, keçən il, ümumiyyətlə, 10 minə yaxın texnika alınmışdısa, bunun 5700-ü pambıqçılıq üçün alınmışdır. Bu il pambıqçılıq üçün yenə də 3 mindən çox texnika alınacaq. Ümumiyyətlə texnikanın alınması üçün bu il dövlət büdcəmizdə 160 milyon manat vəsait nəzərdə tutulub, bunun 118 milyon manatı pambıqçılıq texnikasına xərclənəcək. Yəni, bu rəqəmlər özlüyündə göstərir ki, biz pambıqçılığa nə qədər böyük diqqət göstəririk."

***Pambıqçılığın inkişafına dair respublika müşavirəsində yekun nitqindən***
***(27 mart 2018-ci il)***

***

"Taxılçılıq, heyvandarlıq ərzaq təhlükəsizliyini təmin edən əsas sahələrdir. Bilirəm ki, dövlətin dəstəyi ilə və özəl qurumların fəaliyyəti nəticəsində buğda əkini genişlənir, yeni əkin sahələri dövriyyəyə çıxarılır, suvarma işləri təmin edilir. Bu sahəyə çox ciddi diqqət göstərilməlidir ki, biz özümüzü əsas ərzaq məhsulları ilə tam təmin edə bilək. Biz indi ət, süd məhsulları ilə özümüzü təqribən 80-90 faiz səviyyəsində təmin edirik, amma buğda ilə təminat sahəsində bu rəqəm daha aşağıdır. Ona görə, növbəti illərdə bu sahəyə və eyni zamanda, quş ətinin istehsalına daha böyük diqqət yetirilməli və investisiyalar qoyulmalıdır."

***Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında yekun nitqindən***
***(9 aprel 2018-ci il)***

***

"Kənd təsərrüfatının inkişafı üçün böyük meliorasiya tədbirləri görülübdür, dörd böyük su anbarı tikilib və son bir neçə il ərzində biz hər il 100 mindən çox hektara yeni su mənbəyi gətiririk. Əminəm ki, kənd təsərrüfatının inkişafına bunun çox böyük təsiri olacaqdır."

***Andiçmə mərasimində nitqindən***
***(18 aprel 2018-ci il)***

***

"Bütövlükdə bu gün Azərbaycanda aqroparkların yaradılması geniş vüsət almışdır. Nəzərdə tutulan 45 aqroparkdan 4-ü artıq istifadəyə verilib: Yalama, Şəmkir, Cəlilabad və bu gün Goranboy rayonunda. Mən dördünün də açılışında şəxsən iştirak etmişəm. Bu, bir daha onu göstərir ki, dövlət bu məsələlərə çox böyük diqqət göstərir və dəstək verir. Bu 45 aqroparkın yaradılmasına 1,4 milyard manat sərmayə qoyulacaq, onun bir hissəsi qoyulubdur."

***Goranboyda "Region Agro" MMC-nin açılışında nitqindən***
***(05 iyun 2018)***

***

"Bu gün dünyada elə texnologiyalar var ki, məhsuldarlığı bir neçə dəfə artırır. Biz həm aqrotexniki tədbirlərlə bağlı texnologiyaları, həm də su ilə təminat texnologiyalarını Azərbaycana gətirməliyik. Elə müasir suvarma sistemləri var ki, hər bir qarış torpaqdan maksimum səmərə ilə istifadə olunur. Bax, bu texnologiyaları biz Azərbaycana gətirməliyik və elektron kənd təsərrüfatı sistemini nəhayət ki, tətbiq etməliyik."

***Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında yekun nitqindən***
***(08 iyul 2018)***

***

"Biz daxili tələbatı daxili resurslar hesabına təmin etməliyik. Biz indi pambığı tədarük edirik, onun böyük hissəsi - 60 faizi mahlıc, 40 faizi iplik kimi ixrac olunur. Sonra bu iplikdən istehsal edilən hazır məhsullar bizə idxal olunur və buna milyonlarla, on milyonlarla pul gedir. Ona görə bu sahədə daxili istehsal inkişaf etməlidir və zəncir tipli bir tədarük-istehsal kompleksi yaradılmalıdır."

***Pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlər ilə bağlı müşavirədə giriş nitqindən***
***(19 dekabr 2019)***